# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN EKOLOJİ PROBLEMLƏRİ

**Mətanət Abdalova, Ellada Xankişiyeva, Nüşabə Nuriyeva**

*AR ETN İqtisadiyyat İnstitutu, Bakı*
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası, Bakı*
*metanet.abdalova@mail.ru*

2020-ci ildə otuz il işğal altında olan torpaqlarımızı düşmən taptağından azad etdik. Lakin bu torpaqlar otuz il bundan öncəki, ekoloji tarazlığı ilə, zəngin meşə qoruqları ilə, nadir flora və faunası ilə bütün dünyaya səs salan həmin torpaqlar deyildir. Hal-hazırda azad etdiyimiz ərazilər – ağ fosfor bombalarına, qəsdən törədilmiş yanğınlara məruz qalmış, çoxillik qiymətli ağacları vəhşicəsinə kəsilmiş, su resursları siyasi təsir vasitəsi kimi istifadə edilmiş, ekosistemi, təbiəti və resursları məhv edilmiş ərazilərdir.

İşğal olunmuş ərazilərdə qeyri-qanuni iqtisadi fəaliyyətin ekoloji nəticələrinə Azərbaycan Xarici İşlər Nazirliyinin hesabatında "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətlər" adlı xüsusi fəsil həsr olunub.

Eyni zamanda "AzərKosmos" dövlət şirkəti tərəfindən kosmosdan çəkilmiş və 2019-cu ildə "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətlər: peyklərdən dəlillər" adlı hesabatda yer almış fotolarda bu regiona vurulan ekoloji ziyan çox aydın şəkildə görünür. Qeyri-qanuni iqtisadi fəaliyyətin miqyası göstərir ki, bura xeyli beynəlxalq investisiya cəlb olunub.

Azərbaycanın işğal olunmuş bütün ərazilərində əvvəllər 260 min hektara yaxın meşə sahəsi var idi, lakin son 30 ildə meşə örtüyü sürətlə azalıb. Kosmosdan çəkilmiş görüntülərə görə bunun səbəbi meşələrin kütləvi şəkildə məhv edilməsidir. Qoz, palıd, Eldar şamı, xurma və digər xüsusi mühafizə altında olan qiymətli ağaclar Ermənistana mebel və tüfəng qundağı istehsalı üçün göndərilirdi. Eyni zamanda minlərlə hektar meşə sahəsi yeni mədənlərin istismarı üçün məhv edilib. Bir çox ağac növləri çoxdan nəsli kəsilmək üzrədir. Qarabağ və ətraf ərazilərdə meşələrin məhv edilməsi o qədər geniş miqyasda olub ki, bu mövzu Ermənistan mətbuatında da öz əksini tapıb.

BMT Baş Assambleyasının 7 sentyabr 2006-cı il tarixli "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" qətnaməsinə uyğun olaraq ATƏT-in ətraf mühitin qiymətləndirilməsi missiyası regiona 10 günlük qiymətləndirmə səfəri həyata keçirmişdir. Missiya belə qənaətə gəlib ki, yanan ərazilər genişdir və insanlara, iqtisadiyyata və ətraf mühitə təsirləri əhəmiyyətlidir.

Fosforlu sursatların mülki şəxslərə, mülki obyektlərə və meşələrə qarşı istifadəsi BMT-nin bəzi silahlar haqqında Konvensiyasının III Protokolu (1980) ilə qadağan edilib. Lakin erməni silahlı qüvvələr tərəfindən ağ fosforlu sursatlardan istifadə olunması haqqında Azərbaycanın rəsmi şəxsləri və dövlət qurumları dəfələrlə bəyan ediblər. Bu təhlükəli silah növü əraziləri yandırmaq üçün istifadə olunur, söndürülməsi çox çətinliklə başa gəlir və atmosferə zəhərli tüstülər buraxır.

Ekoloji terrorun istiqamətlərindən biridə regionun su resurslarına ziyan vurmaqdır. Azərbaycanın su resurslarının 30%-dən çoxu bu ərazilərdə yerləşir və bəzi iri çayların mənbəyi Ermənistan ərazisində olduğu üçün, onlar normadan artıq həyat üçün təhlükəli olan maddələrlə çirkləndirilib. Azərbaycan Ekologiya Nazirliyinin verdiyi məlumata görə, Araz çayının uzun müddət çirklənməsi qiymətli balıq növlərinin nəsli kəsilməsinə və azalmasına səbəb olub. 500 milyon kubmetr tutumu olan Sərsəng su anbarı (Tərtər rayonu) 100 min hektar əkin sahəsinin suvarılması üçün nəzərdə tutulub. Lakin uzun müddət təmir olunmadığından yararsız vəziyyətə düşərək rayonun dağətəyi və mərkəzi aran rayonlarında yaşayan 400 min sakin üçün təhlükə yaradır. Azərbaycan tərəfi dəfələrlə Sərsəng su anbarının humanitar, ekoloji və texnogen fəlakətin daimi təhlükə mənbəyinə çevrildiyini bildirib. Bəndin fövqəladə vəziyyəti böyük insan itkisinə səbəb ola bilər [2].

Ekologiya Nazirliyi bildirir ki, Ermənistan BMT-nin "Transsərhəd su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında" Konvensiyasına qoşulmadığına görə sərhəd suları problemlərinin beynəlxalq standartlar çərçivəsində həlli mümkün deyil.

Müasir dövrdə Qarabağ iqtisadi rayonunda mövcud ekoloji vəziyyəti təhlil etmək üçün aşağıda verilmiş statistik göstəricilərə nəzər yetirək. Cədvəldən göründüyü kimi, 2015-2022-ci illər ərzində Qarabağ iqtisadi rayonunda stasionar mənbələrdən çirkləndirici maddələrin atmosfer havasına atılması 2 dəfə, avtomobil nəqliyyatından atılmış çirkləndirici maddələrin həcmi 3,8 dəfə, çirkab suların atılması 4,8 dəfə və məişət-içməli məqsədlər üçün sudan istifadə edilməsi 2,5 dəfə azalmışdır [1].

**2015-2022-ci illərdə Qarabağ iqtisadi rayonunda ekoloji vəziyyət**

| | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| Stasionar mənbələrdən çirkləndirici maddələrin atmosfer havasına atılması, min ton | 0,2 | 0,2 | 0,1 | 0,1 | 0,1 | 0,1 |
| Atmosfer havasına avtomobil nəqliyyatından atılmış çirkləndirici maddələr, min ton | 22,1 | 28,2 | 34,8 | 6,8 | 6,2 | 5,8 |
| Su istehlakı, mln. kub m. | 1455,3 | 1595,5 | 1597,1 | 1645,8 | 1782,1 | 1828,0 |
| Məişət-içməli məqsədlər üçün sudan istifadə edilməsi, mln. kub m. | 19,6 | 9,1 | 9,8 | 8,9 | 8,0 | 7,6 |
| İstehsal ehtiyacları üçün sudan istifadə edilməsi, mln. kub m. | 0,1 | - | 0,3 | - | - | - |
| Suvarma və kənd təsərrüfatının su ilə təchizatı, mln. kub m. | 1435,5 | 1586,4 | 1587,0 | 1636,9 | 1774,1 | 1820,4 |
| Çirkab suların atılması, mln. kub m. | 8,7 | 2,5 | 1,3 | 1,4 | 1,6 | 1,8 |
| Su itkisi, mln. kub m. | 535,2 | 548,7 | 589,3 | 468,3 | 578,9 | 541,9 |
| Kommunal xidmətlər tərəfindən yığılmış məişət tullantıların miqdarı, min kub m. | 171,3 | 205,1 | 253,9 | 250,8 | 252,6 | 258,3 |

**Mənbə: Ətraf mühit - 2023**

Suvarma və kənd təsərrüfatının su ilə təchizatı 1435,5 mln. kubmetrdən 2022-ci ildə 1820,4 mln. kubmetrədək artdığına görə, müvafiq olaraq su istehlakı da paralel şəkildə artmışdır. Əgər 2015-ci ildə ölkənin atmosfer havasına avtomobil nəqliyyatından atılmış çirkləndirici maddələrin 3%-ni Qarabağ iqtisadi rayonu təşkil edirdisə, 2022-ci ildə onun xüsusi çəkisi 0,8%-ə enmişdir.

Bu il ölkəmiz böyük beynəlxalq tədbirin təşkilatçısı olacaq: Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası Azərbaycanda həyata keçəcək. Azərbaycan hal-hazırda ekologiya sahəsində 20 beynəlxalq komissiyanın üzvüdür.

Qarşıya qoyulan məqsədlərdən biri 1990-cı ilə nisbətən 2030-cu ildə istixana effekti yaradan qaz emissiyalarının 35% [3], 2050-ci ildə isə 40% [4] azalmasıdır.

İqlim dəyişməsi ilə mübarizədə Azərbaycan modeli təkrar istehsal və emal yolu ilə təbii resurslardan və məhsullardan uzunmüddət gəlirin əldə etməsini nəzərdə tutur. Bu model təbii resursların tükənməsi, ətraf mühitin çirklənməsi, biomüxtəlifliyin məhdudlaşması ilə mübarizə etməyə, istehsal və istehlak sahəsində innovasiyaların stimullaşdırılmasına imkan yaradacaq. Bu modelin işğaldan azad olunmuş ərazilərdə aprobasiyası iqlim dəyişməsi ilə mübarizədə atılmış çox önəmli addım ola bilər. Ekoloji balansı bərpa etmək məqsədilə Zəngilan, Qubadlı, Füzuli və Ağdamda müxtəlif qiymətli ağac növləri, xüsusən şərq çinarı əkilir. Gələcəkdə İpəkçiliyi inkişaf etdirmək məqsədilə Qubadlı və Zəngilanda tut ağacı əkilir. Ekoloji vəziyyəti qiymətləndirmək məqsədilə ərazilərdə mobil laboratoriyalar qurulub. Minadan təmizlənmiş ərazilərdə ekoloji təmiz enerji istehsalı sahəsində xeyli işlər görülmüşdür. **Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı** Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Energetika Nazirliyinə 1.391.040,0 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmışdır.

**Ədəbiyyat siyahısı:**


1. ARSK Ətraf mühit – 2023.
2. Экоцид в Карабахе https://karabakh.center/d/page18217289.html.
3. 2015-ci il dekabrın 12-də Tərəflərin 21-ci Konfransında qəbul edilmiş Paris Sazişi.
4. 2021-ci ilin noyabr ayında Qlazqo şəhərində keçirilmiş COP26 Konfransı.